Mədəni-maarif.- 2016.- №2.- S.15

E. Əliyeva

# Yubiley mərasimi

Gəncə Şəhər Mərkəzləşmiş Kitabxana Sistemində Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin 80 illik yubiley mərasimi keçirildi.

Tədbiri giriş sözü ilə Yazıçılar Birliyinin Gəncəbasar Zonası üzrə sədri Məmməd Alim açaraq şairin həyat yolundan, fəaliyyətindən danışdı. Tədbirdə professor Bağır Ulduz, şairə Aləmzər Əlizadə, Rəna Teymurqızı, Solmaz Şəms, şair Nadir Ovçu, 4 saylı uşaq musiqi məktəbinin kollektivi, M.Ə. Sabir adına 5 saylı orta məktəbin şagirdləri, Gəncə Dövlət Universitetinin və Gəncə Dövlət Humanitar Kollecinin tələbələri, Gəncə Şəhər Gənc Vətənpərvərlər Birliyinin qərb regionu üzrə sədri Elçin Axundov və başqaları iştirak edirdilər.

Gəncə Dövlət Dram Teatrının aktrisası Rəhilə Həsənova B. Vahabzadənin «Nağıl həyat» şerini söylədi.

5 saylı orta məktəbin şagirdi Ənvər Ənvərzadə «Baba və nəvə», Humanitar Kollecin tələbələri Afət Məmmədova «Əlvida», İlhamə Verdiyeva «Sən getdin» şerləri ilə çıxışlar etdilər.

4 saylı musiqi məktəbinin tələbəsi A. Verdiyev, Ü. Məmmədova, İ. Əlizadə, S. Rəhimov «Heyratı», «Simayi şəms», Nəzakət Həsənova «Kəsmə şikəstə» muğamları ilə çıxış edərək yubiley gecəsini daha da maraqlı və rəngarəng etdilər.

GDU filologiya fakültəsinin 4-cü kurs tələbəsi Şahsuvar Hümbətov öz şerini söylədi.

Gənc Vətənpərvərlər Birliyinin sədri Elçin Axundov Bəxtiyar Vahabzadə haqqında öz fikirlərini diqqətə çatdırdı.

Hüseyn Abbasov «Şuşanın dağları» mahnısını ifa etdi. Sonda söz bu sətirlərin müəllifinə verildi. O, bütün tədbir iştirakçıları qarşısında nitq söyləyərək Bəxtiyar Vahabzadəni, əvəzolunmaz şairimizi 80 illik yubileyi münasibətilə təbrik etdi.

**Elmira Əliyeva,**
**Gəncə Şəhər MKS-in direktoru**